# IV sənaye inqilabının çağırışları uğurla yerinə yetirilir



***Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, digər sahələrdə olduğu kimi nəhəng infrastruktur və nəqliyyat layihələrinin icrası istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib. Bütün bu işlər dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinlikləri fonunda reallaşdırılıb.***

İcra olunan layihələr arasında Azərbaycanda dəmir yolu nəqliyyatı infrastrukturunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi, dəmir yollarında hərəkətin idarə edilməsi prosesinin müasir səviyyəyə çatdırılması, dəmir yolu nəqliyyat vasitələri parkının müasirləşdirilməsi, eyni zamanda, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər mühüm önəm daşıyır. Bu işlər Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan kimi ölkəmizin regionda rolunu və yerini daha da möhkəmləndirir, iqtisadi və nəqliyyat-logistika potensialını əhəmiyyətli dərəcədə artırır.

Onu da qeyd edək ki, dəmir yolu infrastrukturunun müasirləşdirilməsi baxımından yeni Biləcəri lokomotiv deposu da mühüm rol oynayacaq.

Prezident İlham Əliyevin açılışında iştirak etdiyi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yeni Biləcəri lokomotiv deposu barədə verilən məlumatda bildirilir ki, bu müəssisədə lokomotivlərin texniki baxışı və təmiri işləri aparılacaq. MDB məkanında ilk dəfə respublikamızda yaradılan belə bir deponun istifadəyə verilməsi 4-cü sənaye inqilabına keçidlə bağlı atılan addımlardan biridir. Müəssisədə günəş panelləri quraşdırılıb ki, buradan alınan enerji ilə deponun fəaliyyəti reallaşır.

Yeri gəlmişkən, hazırda bağlantı xidmətləri (connectivity), avtomatlaşma və süni intellektin geniş tətbiqi ilə davam edən IV sənaye inqilabının çağırışları Azərbaycanda da özünü qabarıq büruzə verir. Xatırladaq ki, hələ 2019-cu ilin sonlarında Çindən sürətlə yayılan və ölümlə nəticələnən yeni virus infeksiyası pandemiyaya çevrildiyi ilk vaxtlardan etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu dəhşətli bəlaya qarşı strateji xarakter daşıyan mübarizə şəraitində sosial-iqtisadi layihələrin də icrası davam etdirilib. Eyni zamanda, "Sənaye 4.0"ün çağırışları diqqət mərkəzində saxlanılıb və buna uyğun siyasət yürüdülüb. Ən əsası isə respublikamızda bu sənaye inqilabının çağırışları ilə ayaqlaşa bilmək üçün inteqrativ və dayanıqlı inkişaf mühiti yaradılıb, rəqəmsal təşəbbüslər dəstəklənib.

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan rəqəmsal transformasiyanın yeni mərhələsinə uğurla daxil olub. BMT, Davos İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi, "Microsoft", CISCO, VISA, Mastercard kimi beynəlxalq təşkilatlar və transmilli korporasiyalar bu təşəbbüsün gerçəkləşməsində Azərbaycan dövləti ilə yaxından əməkdaşlığa başlayıb.

Yeni Biləcəri lokomotiv deposunun qurulmasında da IV sənaye inqilabının çağırışları diqqət mərkəzində saxlanılıb. Burada zəruri infrastruktur yaradılıb, eyni zamanda, dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıq quraşdırılıb. Deponun tikintisi "Dəyişən cərəyanla işləyən 50 lokomotiv üçün iki deponun – Biləcəri və Gəncə lokomotiv depolarının tikintisi" layihəsi çərçivəsində həyata keçirilib.

Yeni depoların nəzərdə tutulduğu dəyişən cərəyanlı 40 yük lokomotivi və ikili elektrik təchizatı sistemində işləyən 10 sərnişin lokomotivi dünyanın aparıcı şirkətlərinə sifariş edilib. İyirmi səkkizi yük və qalanı sərnişin lokomotivi olmaqla 38 müasir "Alstom" lokomotivi artıq Azərbaycana gətirilib.

Ümumilikdə, bu deponun istifadəyə verilməsi enerji resurslarının qənaətinə, istismarın asanlaşmasına, qatarların hərəkət sürətinin artırılmasına və nəticə etibarilə yük və sərnişin daşımalarında səmərəlilik göstəricilərinin yaxşılaşdırılmasına, lokomotivlərin gücünün çoxalmasına imkan yaradacaq. Depoda xarici ölkələrdə təlim keçmiş 150-yə yaxın yüksək ixtisaslı işçi çalışacaq.

Bütün bunlar inamla deməyə əsas verir ki, Prezident İlham Əliyev tərəfindən göstərilən xüsusi diqqət və qayğı dəmir yolu sektorunun dinamik inkişafı üçün böyük imkanlar yaradıb. Dövlətimizin başçısının respublikamıza rəhbərlik etdiyi 18 il ərzində bu sahədə mühüm uğurlar əldə olunub. Beynəlxalq maliyyə qurumları ilə Qapalı Səhmdar Cəmiyyət (QSC) arasında əlaqələr daha da intensivləşib. İslahatların aparılması sürətlənib. QSC-nin vaqon parkının yenilənməsi istiqamətində mühüm addımlar atılıb.

Beynəlxalq və regional nəqliyyat dəhlizlərinin gələcəkdə normal fəaliyyət göstərməsini və Azərbaycan üzərindən yük axınının dəfələrlə artmasını təmin edə biləcək əsas işlərdən sayılan yerli dəmiryollarının yenidən qurulması, əsaslı təmiri və dəmir yolu parkının yenilənməsi də diqqət mərkəzində saxlanılıb, böyük həcmdə yol və çox sayda yoldəyişən əsaslı təmir olunub, yeni yük vaqonları, həmçinin lokomotivlər alınıb.

Ölkə rəhbəri "Azərbaycan Dəmir Yolları" QSC-nin qarşısında yaxın illərdə reallaşdırılması nəzərdə tutulan bir sıra mühüm vəzifələr qoyub. Həmin vəzifələrdən biri – mövcud dəmir yolu xətlərinin yenidən qurulması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində xeyli iş görülüb. Məsələn, Abşeron dairəvi dəmir yolunda yenidənqurma tədbirləri beynəlxalq standartlara uyğun olaraq həyata keçirilib. Yeri gəlmişkən, Bakı sərnişin–Pirşağı dəmir yolu xətti istismara verilib. Prezident İlham Əliyevin iştirakı ilə Abşeron dairəvi dəmir yolunun Pirşağı–Görədil–Novxanı–Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışı olub.

Xatırladaq ki, istismar uzunluğu 91 kilometr, stansiya yolları ilə birlikdə ümumi uzunluğu isə 198 kilometr olan belə bir layihənin reallaşması paytaxtətrafı qəsəbələrdə yaşayan sakinlərin rahat və təhlükəsiz şəkildə dəmir yolu nəqliyyatından istifadəsinə hərtərəfli imkan yaradır.

Son illər dəmir yolunda ən müasir standartlara cavab verən texnologiyaların tətbiqi də diqqət mərkəzində saxlanılıb. Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçirilməsi, işarəvermə və rabitə sisteminin, lokomotiv və vaqon parklarının yeniləşdirilməsi üzrə avadanlıqların alınması, yol təsərrüfatının sağlamlaşdırılması və s. sahələrin müasir tələblər səviyyəsinə çatdırılması üzrə bir sıra mühüm tədbirlər həyata keçirilib.

Görülmüş tədbirlər nəticəsində İsveçrənin "Stadler Rail Group" şirkətindən KİSS markalı ikimərtəbəli elektrik qatarları alınıb gətirilib. Həmin qatarlar 2015-ci il sentyabr ayının 12-də Bakı-Sumqayıt marşrutu ilə hərəkətə buraxılıb və qatarın yolasalma mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib.

Görülən bu işlər beynəlxalq təşkilatların da diqqətindən kənarda qalmayıb. Belə ki, qlobal miqyasda ən mötəbər təşkilatlardan biri olan Dünya İqtisadi Forumuna görə, Azərbaycan dünyada dəmir yollarının səmərəliliyi baxımından 11-ci, keyfiyyətinə görə isə 34-cü yerdə qərarlaşıb. Ölkəmiz nəqliyyat infrastrukturunun səviyyəsinə görə dünyada 31-ci yeri tutub.

Onu da deyək ki, 2017-ci ildə istifadəyə verilən, Asiya və Avropa arasında vacib logistik bağlantı rolu oynayan Bakı–Tbilisi–Qars dəmir yolu xətti hazırda, həm də beynəlxalq əməkdaşlıq formatı yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir. Bu dəmir yolu xətti Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın Avropa, eləcə də dünya bazarlarına çıxışını asanlaşdırır. Ümumi uzunluğu 846 kilometr olan Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür.

Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə ölkəmizin dəmir yollarında aparılan bütün bu quruculuq işləri Azərbaycan iqtisadiyyatının güclənməsinə və büdcə daxilolmalarının artmasına əlverişli zəmin yaradır. Bu isə, öz növbəsində, dövlət başçısının Azərbaycan vətəndaşının rifahının yaxşılaşması istiqamətində müəyyənləşdirdiyi strategiyanın yüksək səviyyədə reallaşdırılmasını şərtləndirir.

Yuxarıda deyilənlərdən bir daha aydın olur ki, respublika iqtisadiyyatının inkişafında çox mühüm rol oynayan "Azərbaycan Dəmir Yolları" QSC beynəlxalq və regional layihələrdə iştirakını reallaşdırmaqla öz infrastrukturunu qoruyub saxlayır, əhalinin, dövlət strukturlarının daşımalara olan tələbatının ödənilməsi istiqamətində fəaliyyətini uğurla davam etdirir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***